# J. Piagetin Koqnitiv İnkişaf nəzəriyyəsi



Aytac Sahil

# Jean Piaget

**1896- 1980**



- İsveçrədə doğulan Piaget kiçik yaşlarından təbiət elmləri ilə maraqlanırdı. 10 yaşında etdiyi müşahidələr sadəcə universitet kitablarında izah olunan hadisələr idi.
- K.Q.Yunqun tələbəsi olmuşdur
- Nəzəriyyəsi 50 ilə yaxın müşahidələrinə əsaslanmaqdadır.
- Nəzəriyyəsini genetik epistemalogiya olaraq adlandırdı. Ona görə psixologiya fəlsəfə və biologiya arasında halqadır.
- Deyilənə görə Piaget uşaqların düşüncə tərzinə ciddi yanaşan ilk elm adamıdır.

**Aytac Sahil**

- Alfred Binet ilə  Dr. Theophile Simonun zəka testlərinə uşaqların niyə həmişə yanlış cavablar seçməsi ilə maraqlanmağa başlamışdır. Bu onu uşaqların koqnitiv inkişafı mövzusu üzərində işləmək üçün həvəsləndirdi.




**Aytac Sahil**

# Piaget və Uşaqlar ☺

Piagetə görə uşaq dünyanı passiv şəkildə qavrayan deyil. Məlumatı əldə etməkdə aktiv rola sahibdir

«Uşaqlar yalnız öz kəşf etdikləri şeyləri həqiqi mənada qavraya bilərlər. Onlara nəyisə tələsik öyrətməyə cəhd etdiyimizdə, bu şeyləri onların özlərinin kəşf etməsinə mane olmuş oluruq»



**Aytac Sahil**

# Piagetə görə koqnitiv inkişaf

- Koqnitiv inkişafı bioloji qanunlarla izah edirdi. Ona görə inkişaf irsiyyət və mühitin qarşılıqlı təsirinin nəticəsidir.

Koqnitiv inkişafa təsir edən qanunlar;

* yetkinləşmə
* təcrübə
* uyğunlaşma
* təşkil etmə
* tarazlama

# Nəzəriyyəsinin əsas anlayışları

- **Zəka:** Piaget, zəkanın testlərlə müəyyən edilməsinə qarşı idi. Ona görə zəki davranmaq, organizmin yaşamağı üçün ən əlverişli şərtlərlə təmin etməkdir. Yəni zəka orqanizmin mühitə uyğunlaşmasına kömək edir.
- **Sxem:** insanın ətrafındakı dünyanı başa düşmək üçün inkişaf etdirdiyi komputer proqramı kimidir. İnsanın əldə etdiyi hər yeni məlumatı  zehnində yerləşdirdiyi çərçivədir. Sxemlərlə bağlı önəmli məqam: daima yetkinləşmə və təcrübə qazanma yolu ilə dəyişikliyə uğrayıb yenidən təşkil oluna bilən olmasıdır. *(ilkin sxemlər reflekslərdir: əmmə, tutma və.s)*

- **Uyğunlaşma**: dəyişməzdir yəni ömür boyu davam edir. Koqnitiv baxımdan olduğu kimi fiziki və psixososial inkişaf baxımından da daimi olaraq uyğunlaşmaq məcburiyyətindədir.

Piagetə görə uyğunlaşmanın 2 istiqaməti var; - assimilasiya və

- akkomodasiya

# Mənimsəmə (assimilasiya)

- İnsanın yeni qarşılaşdığı vəziyyət, əşya, hadisə ya da məlumatı, özündən əvvəl mövcud olan sxemlərlə açıqlaya bilməsidir.

# Uyğunlaşdırma (akkomodasiya)

- İnsanın yeni qarşılaşdığı vəziyyət, hadisə ya da məlumatı,özündən əvvəl mövcud olan sxemlərlə açıqlaya bilmədikdə, yeni bir sxem fikirləşməsi ya da mövcud olan sxemin məzmununu dəyişdirməsi lazım gəlir.

# Tarazlama (Equilibration)

- Qarşılaşılan yeni vəziyyət, mövcud olan sxemlərlə açıqlana bilmədiyində bu insanı narahat edir. Tarazlıq pozulur. Halbuki orqanizm həmişə öz tarazlığını qorumağa çalışır.
- İnsanın zehni inkişafının təməlində onun bioloji yetginləşmə prosesi durur.
- Mənimsəmə (assimilasiya) və uyğunlaşdırma(akkomodasiya) nəticəsində tarazlıq qurulur.
- Öyrənmə  böyük ölçüdə tarazlığın pozulmasına  və yenidən tarazlığın bərpa olunmasına bağlıdır.

Yeni vəziyyət → tarazlıq pozulur → öyrənmə → tarazlıq →

# 3 mexanizm

Tarazlıq pozulduğu zaman insan 3 mexanizmdən birini istifadə edir.

- Yeni məlumatı əvvəlcə mövcud olan sxemə yerləşdirir. Buna (assimilation) deyilir.
- Yeni məlumat əvvəlcədən movcud olan sxemə uyğun olmadığı zaman mövcud olan sxemlər bu yeni məlumat əsasında dəyişdirilir. Buna (accomodation) deyilir.
- əgər yeni bir məlumat bu mexanizmlərdən heç birinə uyğun gəlmirsə o zaman biz bu məlumatı görməməyə çalışırıq. (görməzdən gəlmək)

# Quruculuq (Constructivism)

- Zehindəki sxemlər  bir birindən ayrı və əlaqəsiz deyillər. Sxemlər  bir biri ilə əlaqəli və sistemli bir şəkildə qruplaşmışdır.

# Piagetin Zehni inkişaf mərhələləri

**1. Sensomotor (0- 2 yaş)**

**2. Əməliyyatöncəsi mərhələ (2- 7 yaş)**

**3. Konkret  əməliyyatlar  mərhələsi (7- 11 yaş)**

**4. Mücərrəd əməliyyatlar mərhələsi  (11 +)**

# I Sensomotor

- Uşağın xarici aləmi kəşf etməyə başladığı mərhələdir. Bu kəşf təqlid və ya sınama-yanılma yolu ilə reallaşır.
- 6 aylıq bir uşağa üz ifadələri göstərildikdə o da həmin ifadələri etməyə başlıyır, təqlid mövcuddir.
- Yəni uşaq dünyanı hissləri və

  əlləri ilə qavrayır ☺



Aytac Sahil

# Sensomotor mərhələ

- 6-8 aylar arasında ikincil reaksiyaların koordinasiyası vardır. Yəni refleksiv davranışlardan məqsədli davranışa keçid müşahidə olunur.
- 0-8 ay arasında səs bulaşması baş verir. Körpə özünü xarici dünyadan ayıra bilmir.

**Səs Bulaşması:** ən bəsit təqlid və öyrənmə təcrübəsidir. Ağlama səsi eşidən uşağın, səsi eşitdikdən qısa müddət sonra özünün də ağlamağa başlamasıdır.

- 8 -18 ay arasında əşya davamlılığının qazanılması gerçəkləşir. İnsan davamlılığının qazanılması əşya davamlılığından aslıdır.

**Əşya davamlılığı:** Körpə ilk vaxtlar gözünün önündən itən əşyanı axtarmır. Əşya yox oldu deyə düşünür , ağlayır ya da marağını başqa yerə istiqamətləndirir. Daha sonra əşyalar gözdən itsə də, əşyanın yox olmadığını başa düşməyə başlayır. Buna əşya davamlılığı deyilir. Körpə

8-12 aylıq olduğu zaman gözünün qabağından itən əşyanı axtarmağa başlayar. Artıq əşyanı davamlı görə biləcəyini başa düşməyə başlayır.

# Sensomotor mərhələ

- 11ci aydan etibarən əşya kimliyi qazanılır.

**əşya kimliyi**: bir şeyin bir vəziyyətdən digərinə, ya da bir gündən başqa bir günə dəyişmədiyini, eyni olduğunu başa düşməkdir.

- 12-18 ay arasında əşyalara uzanmaq üçün yeni üsullar axtarır.

Məs, yorğanının ucundaki oyuncağa yorğanını çəkərək əldə edə biləcəyini öyrənir.

Bu da məntiq yürüdərək düşünmə üçün əsas xüsusiyyətdir.

# Sensomotor mərhələ

- **Dövri reaksiya :** Eyni hərəkətləri təkrarlama məs,

İşığı yandırıb-söndürmə .....

3 növü var;

- Birinci dövri reaksiyalar (0-6 Ay): Tamamilə bədənə yönəlmiş təkrar hərəkətlər edir: *Səs bulaşması, daimi barmaq əmmə , tapdığı şeyi ağzına aparmaq və.s*
- İkinci dövri reaksiyalar (6-12 Ay): ətrafa yönəlmiş təkrar hərəkətlər edir :*əlindəki qaşığa davamlı şəkildə vurma, çıxan səsi xoşlayıb davranışını təkrar etmə və s.*
- Üçüncü dövri reaksiyalar (12 Ay + ): ətrafdakı hadisələrin özünə tətbiqi; *Xoşuna gələn sözü və ya mahnını davamlı olaraq təkrar etmək*

# Sensomator mərhələ

- Passiv Gözləmə : İtən əşyanın arxasınca heç bir şey etmədən sadəcə baxmasıdır. Əşya davamlılığı ilə birlikdə 8-ci aydan etibarən başlayır.
- Sehirli əlaqə: Davranışlar arasında səbəb-nəticə əlaqəsi qura bilmədiyi üçün, səbəbi sehirli hadisə kimi qəbul edirlər.
- Təbiətdən Ayrılma: Uşağın özündən başqa, ondan ayrı dünyanın olduğunun fərqinə varmasıdır. *7,5-8-ci  aydan etibarən başlayır.*
- Zehndə Canlandırma: Hər hansı davranışı etmədən əvvəl davranışın zehində canlandırılmasıdır.

# Sensomotor mərhələ

- **Ertələnən (Gecikmiş)  təqlid:** Çağa müşahidə etdiyi davranışları o saat təqlid etməyə bilər. Müəyyən zaman keçdikdən sonra da təqlid edə bilər.

*Məs, qonşu uşağın ağladığı zaman  özünü yerə ataraq ayaqlarını yerə çırpdığını görən uşaq bunu o saat etməyə bilər. Amma evə qayıtdıqdan sonra təkrarlaya bilər.*

**Ertələnmiş təqlid nitq inkişafının çox önəmli ünsürüdür.**

# II Əməliyyatöncəsi mərhələ

İki mərhələyə ayrılır;

- Simvolik mərhələ (2-4 yaş)
- İntuitsiya əsaslı mərhələ (4-7 yaş)

## SİMVOLİK MƏRHƏLƏ

**Söz mənbəyi 200 dən 2000 qədər çıxsa da, qrammatik quruluşa sahib deyillər. Simvolik oyunlar artır.**

**Bir şeyi başqa bir şeymiş kimi istifadə edirlər: *Çubuğu at olaraq istifadə etmək..***

## İNTUİTSIYA ƏSASLI MƏRHƏLƏ

**Çoxlu suallar verirlər.**

**Bildiklərini necə bildiklərini açıqlaya bilmirlər.**

**Aytac Sahil**

# Əməliyyatöncəsi mərhələdə nə bacarmalıdırlar?

- Dilin mənimsənilməsi və simvollarla düşünmə
- Məntiq yürüdə bilər, ancaq hadisələri sadəcə bir xüsusiyyətinə görə qiymətləndirimə
- Mən mərkəzdədir. Başqasının fikrini mənimsəyə bilmirlər.
- Tərsinə çevirə bilməmək
- Dəyişməzlik (bir şeydən başqa formaya keçmə)
- Uşaqdan birdən çox iş görməsi istəndiyi zaman bunlardan axırıncısı yadında qalır.

# EQOSENTRİK DÜŞÜNMə

Uşaqlar bu mərhələdə öz  fikirlərinin mümkün olan tək fikir olduğunu fikirləşirlər. Öz bildiklərini başqalarının da bildiyini fikirləşirlər. Özlərini dünyanın mərkəzində hesab edirlər.

Niyə günəş çıxır dediyinizdə məni isidə bilmək üçün cavabını ala bilərsiniz.

Hər şeyin insan əli ilə hazırlandığını fikirləşirlər. Məs, yağış haradan yağır dedikdə göydəki borudan deyə cavab ala bilərsiniz.



# Simvollardan istifadə etmək

- Dili istifadə etməyə başlayır.
- Danışır
- Şəkil çəkərək özünü ifadə edir. (3-6 yaş)

əməliyyatöncəsi mərhələ Simbolik oyun

Əşyaları məqsədindən fərqli olaraq istifadə edirlər. Stul maşın olur, çubuqdan at kimi istifadə edirlər, qazan qapağı maşın sükanı və s.

**Aytac Sahil**

# Tək tərəfli qruplaşdırma

.

əşyaları  tək bir xüsusiyyətinə baxaraq  qruplaşdıra bilər. Ancaq  birdən çox xüsusiyyətinə baxaraq qruplaşdırmaqda çətinlik çəkər.

Məsələn əlimizdə  üçbucaq, kvadrat, dairə  var. Bunlar da müxtəlif

rəngdədirlər. O bunu ya formasına görə, ya da  rənginə görə qruplaşdıra bilər.

Uşaq bir hadisənin ya da əşyanın bir xüsusiyyətinə diqqətini istiqamətləndirir  və digər  xüsusiyyətləri diqqət mərkəzində tutmaz.

**Aytac Sahil**

# Tək tərəfli fikirləşmə

- Bir əşyanın ya da bir vəziyyətin tək bir xüsusiyyətinə əsaslanaraq qərar verirlər.
- İki hadisədəki  ortaq nöqtədən  ya da oxşarlıqdan  yola çıxaraq ümumiləşdirmə etməsidir.
- Bir uşaq hər səhər, səhər yeməyində yumurta yeyib bir gün yemirsə bu zaman səhər yeməyi yemədiyini deyə bilər.

# əməliyyatöncəsi mərhələdə uşaqlarda hələ konservasiya (SAXLAMA,QORUMA) formalaşmaqdadır

- əməliyyat öncəsi mərhələdə uşağa aşağıdakı şəkillərdən biri göstərildiyi zaman, çox yer tutan topların sayının daha çox olduğunu ifadə edəcəkdir.





**Aytac Sahil**

# əməliyyatöncəsi mərhələ (DəYİŞMəZLİK qazanılmayıb)

- Məsələn, uşağın gözünün önündə eyni miqdardakı  suyu iki qaba boşaltdığımız zaman  ona elə gəlir ki uzun qabda daha çox su var.



# Animizm

- Uşaqlar canlı  və cansız varlıqları bir birinə qarışdırırlar.

Məsələn, kuklanın canlı olduğunu,oyuncaqlarının canlı olduqlarını, acdıqlarını, üşüdüklərini və.s  fikirləşirlər .



## Əməliyyatöncəsi mərhələdə uşaqlar tərsinə çevirə bilmə işini edə bilməzlər.

- Yəni:

- 10-na qədər rahat saya bilsələr də 10-dan geriyə doğru rahat saya bilməzlər.

- Evdən məktəbə gedəndə gördüklərini sıra ilə deyə bilsələr də, tərsini eləməkdə çətinlik çəkirlər.

# Monolog tipli danışıq

- Uşaq mənliyini yüksək qiymətləndirməyə başlayır. Eyni mühitdə yan yana olan uşaqların qarşılıqlı olaraq danışdıqları düşünülsə də, əslində çox vaxt heç kimin bir-birini dinləməməsi müşahidə ediliri, gdiəri yoxmuş kimi oynayırlar.



# III Konkret əməliyyatlar mərhələsi

- Konkret əməliyyat  mərhələsində uşaq artıq əşyanın ümümi vəziyyətini, həcmini, böyüklüyünü qavrayır.
- Artıq tərsinə çevirə bilirlər.
- 5 + 2 = 7 misalını  7 – 2 = 5 olaraq həll edə bilirlər.
- Artıq rəqəmləri böyükdən kiçiyə, kiçikdən böyüyə sıralaya bilirlər.

- Qruplaşdırma

Konkret əməliyyatlar  mərhələdə uşaq əşyaları qruplaşdırdığı zaman artıq bir çox xüsusiyyətinə görə qruplaşdırmağa başlayır

Aşağıdaki şəkilləri həm rəng, həm də formalarına görə qruplandıra bilir.



# IV Mücərrəd əməliyyatlar mərhələsi 11+

- Mücərrəd problemləri məntiqli şəkildə düşünüb həlletmə bacarığına yiyələnirlər.

Məsələn dinozavrların ölüm səbəbi, asteroid, qlobal istiləşmə, virus və s kimi şeylər haqqında düşünüb fikir yürüdürlər.

# Piagetə görə İdrak

İnsanların dünyanı öyrənməsi və anlamasına, mənalandırmasına təməl olan zehni fəaliyyətlərdir.

İdrakın anlayışları:

- agıl,
- bilik,
- düşüncə,
- yaddaş,
- xatırlama,
- problem həlletmə

# Piagetə görə zəka

- Zəka İnsanın ətraf mühitə adaptasiya ola bilmə gücüdür.
- Anlamaq üçün əvvəlcə kəşf etmək lazımdır (əvvəl hərəkət sonra düşüncə)
- Nitqin inkişafı: daxili nitq → eqosentrik nitq → sosiallaşmış məntiqi nitq
- Uşaq sosial mühitlə əlaqədə öz-özünə öyrənir



| Sensomator (0-2) | Əməliyyat öncəsi (2-7) | Konkret əməliyyatlar (7-11) | Mücərrəd əməliyyatlar ( 11-18) |
|---|---|---|---|
| ✓ **Rekfleksli davranışlardan məqsədli davranışlara**<br>✓ **əşyaların davamlılığı**<br>✓ **təqlid, ertələnmiş təqlid**<br>✓ **Sınama-yanılma**<br>✓ **vərdişlər** | ✓ dildən istifadə, əşyaları işarələr və sözlərlə ifadə etməyi öyrənir<br>✓ əşyaları yalnız bir əlamətinə görə sinifləndirir<br>✓ eqosentrik düşüncə<br>✓ kollektiv monoloq<br>✓ animizm<br>✓ yanlış əlaqələndirmə<br>✓ tərsinə çevirə bimənək<br>✓ insanların daimiliyi<br>✓ konservasiya qazanılmayıb | ✓ məntiqi düşünmə<br>✓ konservasiya qazanılıb<br>✓ tərsinə çevirə bilmə<br>✓ dolayı həqiqəti qavrama<br>✓ əşyaları bir neçə xüsusiyyətinə görə ayırma | ✓ mücərrəd düşünmə<br>✓ elmi düşünmə<br>✓ yeniyetmə eqosentrizmi<br>✓ fikir yürütmə<br>✓ irəliyə-geriyə düşünmə |

Aytac Sahil

# Stages

| Sensorimotor | Preoperational | Concrete operational | Formal operational |
|---|---|---|---|
| Birth–2 years | 2–7 years | 7–12 years | 12 years onward |
| Understands world through senses and actions | Understands world through language and mental images | Understands world through logical thinking and categories | Understands world through hypothetical thinking and scientific reasoning |

Aytac Sahil

***Psixologiyanın bəxtsizliyi hər kəsin özünü psixoloq hesab etməsindədir.***

Jean Piaget

